# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 461** **Bakı şəhəri, 20 oktyabr 2017-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmiş "Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar"da dəyişikliklər edilməsi haqqında**

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 673-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 may tarixli 1421 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 72 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 305, № 9, maddə 1123; 2015, № 12, maddə 1564) ilə təsdiq edilmiş "Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1. 9-cu hissəyə "tətbiq edilən" sözlərindən sonra "fərdi" sözü əlavə edilsin.

2. 14-cü hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin və həmin hissədən üçüncü cümlə çıxarılsın:

"Bu zaman tikintinin yanğın təhlükəsizliyi, sağlam sanitar-epidemioloji, insolyasiya və təbii işıqlandırma şəraitinin təmin edilməsi zəruridir.".

3. 15-ci hissə aşağıdakı redaksiyada verilsin:

"15. Torpaqlardan səmərəli istifadə məqsədi ilə tikinti obyektinin layihələndirilməsi zamanı layihəçilərin təklifi nəzərə alınmaqla, qarşılıqlı razılaşdırılma əsasında yanaşı sərhəddə obyektlərin tikintisi iki paralel və qapalı (boşluqları olmayan) divar və ya ortaq divar vasitəsilə həyata keçirilir.".

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının***
***Baş naziri***